# Yubilyar haqqında dost sözü



60 il öncə Düzrəsullu kəndində Ziyad kişinin ocağında bir körpə dünyaya gəldi. Adını Nazim qoydular. Dağ yerlərinin ənbər ətirli ab-havası, özünəməxsus əski comərd ənənələri, kişilik öyüd-nəsihəti, Qurani-Kərimdən öyrənilmiş xeyir-dua ilə əzizlənə-əzizlənə bələyi bükülüb açılan bu oğlan uşağı ailənin Tanrı tərəfindən verilmiş sevinc payı idi. İllər keçdi, dizləri möhkəmləndi, ayaqları yer tutdu, biləklərinə təpər gəldi, dil açıb istək dilədi və günlərin birində Nazim məktəbə getdi. Bu sarışın, gözləri mavi balaca Nazim orta təhsilini başa vurub o zamanın ən ünlü təhsil ocağı olan S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tələbəsi oldu. Zamanın sürətli axarı günləri, illəri geridə qoya-qoya Nazimi də böyütdü və 60 yaşa yetirdi. Şagird, tələbə, fəlsəfə elmləri doktoru, professor, rektor Nazim Hüseynli...

Doğrusu Nazim müəllimlə nə vaxt, harada, hansı məsələ ilə əlaqədar tanışlığımı xatırlamıram. Əslində bunun heç əhəmiyyətini də mühüm saymıram. Bu məqamda təkcə mahiyyətinə vardığım bir şey var, o da içimdən gələn bir səsdir: nə yaxşı ki, Nazim bir yaz günündə dünyaya gəlib, bu dünyada yaşayır və biz tanış olmuşuq. Şükür Tanrıya ki, Nazim adında dupduru, aydın düşüncəli, dərin təfəkkür sahibi, vətənsevər, el oba vurğunu, dəyərli övlad, gözəl ailə başçısı, yaxşı qardaş, böyük alim və arxalanası dost qazanmışam.

Nazim xarakterli adamdır. İnsan üçün çox mühüm əhəmiyyəti olan bu prinsipial amil onun sonrakı həyat yolunun dəyər təməlidir. Yuxarıda Nazim müəllim haqqında söylədiyim fikirlərin hamısı məhz həmin təməl dəyərin inikasıdır. Burada bir xatirəni bölüşməyi məqbul hesab edirəm. Ali Diplomatiya Kolleci yenicə yaranmışdı. Necə deyərlər, özünə düz əməlli yer edə bilməmişdi hələ, kirayəşin idi. Ona müraciət edən bir həmkarını naümid qoymamaq üçün öz yerini onunla bölüşdü.

Nazim təmənnasızdır. Ona görə də Nazimdə bir könül xoşbəxtliyi var. Taleyindən razı, dünyəvi firavanlığın heçliyini bütün mənada bilən və dərk edən, təbiətən böyük insandır. Yaxşılıqdan ruhlanan Nazim dost üçün çəkdiyi iztirabı belə göstərməməyə çalışır. Böyük zəkalar bəşəriyyətə nə verməlidirlərsə onlar onu artıq gənclikdən toplamağa başlayırlar. Müdriklərin söylədiyi bu fikri dost Nazim haqqında deməmək məncə qəbahət olardı.

Nazim xeyirxahdır. O, ətrafındakılara sevinc bəxş etməkdən xoşlanır və daxili bir rahatlıq tapır. "Mən bu gün bir yaxşılıq edə bildim" - iftixar hissi Nazimin həyat tərzidir. Yaxşı yadımdadır, Nazim müəllimin doktorluq müdafiəsində opponentlərdən biri fikirlərini qarışdırdığından pis vəziyyətə düşdü. Sanki o doktorant, Nazim isə rəyçi idi. Bu məqamda da gözəl ürək sahibi olan Nazim müəllim xeyirxahlıqla opponentini düşdüyü dolaşıqdan çıxartdı və axşamkı ziyafətdə də hamıdan çox ona diqqət göstərdi.

Xatirələr çoxdan da çox olduğundan nədən başlayıb nədə qurtarmağın özü də müşküldür. Və bir də ki, dost haqqında uzun danışmağa nə hacət. Nazim sözlərlə ifadəyə gəlməyəcək qədər yüksəklikdə durduğundan, eşidib inanmadığım sözün yazıqlığına məhz indi inandım.

Əzizim Nazim, hörmətli Nazim müəllim, yubiley yaşın mübarək olsun.

**Mübariz SƏFƏROV,**
*yazıçı-publisist*